BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№1* *Sosial-siyasi elmlər seriyası* *2013*

**UOT 330.101:330.837:330.8**

# MİLLİ İQTİSADİYYATIN MİKROSƏVİYYƏDƏ SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ VƏ TƏNZİMLƏNMƏ PROBLEMLƏRİ

**M.Y.HƏMİDOVA**
***Bakı Dövlət Universiteti***
***nargiz@mail.ru***

*Çox mürəkkəb təsərrüfat, sosial, təşkilati, elmi-texnoloji sistem olan milli iqtisadiyyatın mikrosəviyyədə təcrübədə gerçəkləşən məqamlarının elmi müstəvidə araşdırılması və onların özünəməxsus xüsusiyyətlərinin əsaslandırılması çox vacibdir. Bu baxımdan tədqiqatımızın məqsədi ev təsərrüfatlarının milli iqtisadiyyatın mikrosəviyyədə əsas axınına alternativ kimi inkişaf etməsi barədə elmi-nəzəri əsaslandırmalar, ev təsərrüfatlarının üzvlərinin davranışından həm şirkətlərin, həm də dövlətin fəaliyyəti asılı olduğuna dair fikirlərin inkişaf etdirilməsi təşkil edir. Bundan irəli gələrək, tədqiqat işləməsində ev təsərrüfatlarının təhlilinə verilən əsas yanaşmaların təsnifatına yeni baxış sistemli yanaşma və müqayisəli təhlil sferasında araşdırılır və bu istiqamətdə uyğun gələn səmərələşdirici təkliflər əsaslandırılır.*

**Açar sözlər:** ev təsərrüfatları, ehtiyatlılıq motivi, gəlirin əldə edilməsi

Adətən təsərrüfat həyatının üç subyektini -ev təsərrüfatları, şirkətləri və dövləti ayırırlar. Tarixən və məntiqi baxımdan ilkin olanı ev təsərrüfatlarıdır-şəxs və ya əksər hallarda birgə yaşayan və ümumi təsərrüfat aparan (ümumi büdcəyə malik olan) şəxs qruplarıdır ki, bunların da aralarında iqtisadi fəaliyyətlərini təşkil edən şəxsləndirilmiş münasibətlər mövcud olur. Ev təsərrüfatlarının üzvlərinin davranışından həm şirkətlərin, həm də dövlətin fəaliyyəti asılı olduğuna görə, bu məqalə də milli iqtisadiyyatı mikrosəviyyədə dərk etməyə cəhddir.

*Ev təsərrüfatının səciyyəvi xüsusiyyətləri*

Ev təsərrüfatlarını əksər hallarda ilkin iqtisadi subyekt kimi ailə ilə eyniləşdirirlər. Bu anlayışlar yaxın olsa da, ev təsərrüfatları və ailə arasında fərqlər var. Ev təsərrüfatları və ailə arasında fərqin əsas meyarlarından biri hər bir ev təsərrüfatının xüsusiləşmiş büdcəsinin mövcudluğudur. Məsələn, üç nəsildən ibarət olan ailə (baba, nənə, ata, ana, nəvələr) öz fəaliyyətini bir ev təsərrüfatı çərçivəsində həyata keçirə bilər və ya müxtəlif büdcələrə malik

olaraq ayrı yaşaya bilərlər. Birinci halda ailə ev təsərrüfatı ilə üst-üstə düşür, ikinci halda bir ailə bir neçə ev təsərrüfatından ibarətdir.

Ailə və ev təsərrüfatlarının yaxınlılıq səviyyəsi bir qayda olaraq, cəmiyyətin sosial-mədəni xüsusiyyətləri ilə əlaqədardır.

Belə bir fikir hökm sürür ki, roman ailələrində (İtaliya, İspaniya, Latın Amerikası ölkələrində) ənənəvi olaraq, ev təsərrüfatları və ailələr bir-birinə daha yaxındır, hər halda, ingilis-sakson ölkələrinə nisbətən ailələr bir-birlərindən daha az uzaqlaşır (məs., ABŞ-da). Bu, o deməkdir ki, məsələn, adi gənc italiyalı öz ailəsini qurduqdan sonra belə, valideynləri və digər qohumları ilə sıx təmasda olur, onlara kömək edir və onlardan maddi yardım alır. Əksinə, tipik gənc amerikalı valideynlərindən və ailənin digər üzvlərindən kifayət qədər erkən ayrılır və öz şəxsi vəsaiti və səyi hesabına həyatda yolunu müəyyənləşdirir.

Azərbaycanda vəziyyət roman ölkələri institutlarına daha yaxındır – ailə və ev təsərrüfatı əsasən üst-üstə düşür.

Ümumi halda demək olar ki, ev təsərrüfatlarının əsas iqtisadi funksiyası insan resurslarının –insan, sosial  və fizioloji kapitalın təkrar istehsalıdır (məsrəflərin yerinin doldurulması və yığım). "İnsan kapitalı" dedikdə, insandan ayrılmaz olan bilik, vərdiş və təcrübənin məcmusu başa düşülür ki, bunları da realizə edən fərd həm özü, həm də yaxınları üçün maddi şərait yaradır; "sosial kapital" dedikdə, fərdin sosial şəbəkələrə və insanlarla başqa qarşılıqlı münasibətlərə daxil olması başa düşülür ki, bu da əmək məhsuldarlığını artırır; "analloji kapital" insanın işçi kimi bioloji potensialıdır ki, bu da anadangəlmədir. İnsan və fizioloji kapital ehtiyatları əsasən, transformasiya məsrəflərinin, sosial kapital ehtiyatları isə, transaksion məsrəflərin aşağı düşməsinə xidmət edir (1, 34).

Beləliklə, ev təsərrüfatlarının səciyyəvi xüsusiyyətlərinin təhlil edilməsi milli iqtisadiyyatın mikrosəviyyədə özünəməxsus olaraq araşdırılmasında mühüm amil rolunda çıxış edir.

*Ev təsərrüfatlarının şirkət və dövlətlə qarşılıqlı münasibətlərinin elmi əsaslandırmaları*

Ev təsərrüfatlarının şirkət və dövlətlə qarşılıqlı münasibətləri iqtisadi dövretmə modelində göstərilmişdir (şək. 1)




**Şək. 1.** İqtisadi dövretmə modeli

Həm şirkətlər, həm də dövlət ev təsərrüfatlarından törəmədir. Axı, şirkətlər ayrı-ayrı insanlara, yaxud insan kollektivlərinə məxsusdur, yəni sonda şirkətlərin fəaliyyətindən maddi və qeyri-maddi rifahları məhz ev təsərrüfatları əldə edir. Həmçinin dövlət də ev təsərrüfatlarının maraqlarının müdafiəsi üçün ev təsərrüfatlarında birləşmiş insanlar tərəfindən yaradılıb. Beləliklə, məhz ev təsərrüfatları bizim dövrə qədər mövcud olan istənilən iqtisadi sistemin ilk elementidir. Bu, hələ antik dövrdə Ksenofont və Aristotel tərəfindən qeyd olunmuşdur ki, bunlar da "iqtisadiyyatın" özünə ev təsərrüfatlarının səmərəli aparılması haqqında elm kimi baxmışlar.

Ev təsərrüfatlarını şirkət və dövlətlə tutuşduran iqtisadi dövretmə modeli sənaye cəmiyyətinin təsviri üçün kifayət qədər dürüstdür. Amma postindustrial cəmiyyətə xarakteristika vermək üçün ondan istifadə etmək çətindir. Sənaye cəmiyyətində istehsal əsasən ev təsərrüfatları çərçivəsindən "xarici aləmə" çıxmışdı, evə isə istirahət yeri, itirilmiş qüvvənin bərpa yeri kimi baxılırdı. Istehsalın yeni vasitələri- əsasən elektron qurğular evdə iş və istirahəti birləşdirməyə imkan verir. Artıq indi bir çox mütəxəssislər (proqramçılar, dizaynerlər, marketoloqlar, nəzəriyyəçi-alimlər, jurnalistlər) əsasən evdə kompüter qarşısında işləyirlər, yollara vaxt sərf etmirlər. Mümkündür ki, gələcəkdə ev təsərrüfatları və şirkətlər arasında olan fərq daha da silinəcək.

Ev təsərrüfatları həm əmtəə bazarlarında, həm də resurslar bazarında fəal oyunçular qismində çıxış edir. Əmtəə bazarlarında ev təsərrüfatları əmtəə və

xidmətlərin istehlakçısı kimi fəaliyyət göstərir. Resurslar bazarında ev təsərrüfatları çox mühüm istehsal resursu olan əməyin təchizatçısı kimi fəaliyyət göstərir. İşçi qüvvəsi bazarında təklifi məhz ev təsərrüfatları formalaşdırır. Əməyin təklifi hər şeydən əvvəl, demoqrafik faktorlarla: əmək qabiliyyətli əhalinin sayı, onun yaş strukturu ilə müəyyən olunur. Bundan başqa, işçi qüvvəsinin təklifinə əmək qabiliyyətli əhalinin müxtəlif demoqrafik və etnik qruplarının iqtisadi fəallığı, immiqrasiya prosesləri təsir edir. İşçilər həmçinin, iş vaxtına görə əldə olunan gəliri və istirahət vaxtının faydalılığını müqayisə edirlər. Əlbəttə, ev təsərrüfatları əmtəə bazarlarında məsələn, şəxsi yardımçı təsərrüfatda istehsal etdiyi məhsulu təklif edərək, satıcı qismində də çıxış edə bilər. Ümumi halda qeyd etmək lazımdır ki, resursların satışı hesabına (əsasən, işçi qüvvəsinin) ev təsərrüfatlarının gəlirləri formalaşır ki, bunlar da sonra istehlaka və yığıma sərf olunur.

Aydındır ki, ev təsərrüfatlarının büdcəsində bir qayda olaraq, gəlirlər xərcləri müəyyən edir. Amma ev təsərrüfatları müəyyən vaxt kəsiyində istehlaka əldə etdiyindən az xərc sərf edə bilər, qalanını yığıma yönəldər, ya da əldə etdiyindən çox xərcləyə, maliyyə bazarlarından əlavə vəsaitlər götürə bilər. Bazar iqtisadiyyatlı ölkələrdə ev təsərrüfatları maliyyə bazarlarında fəal oyunçular kimi çıxış edirlər. əhalinin əmanətləri əsas investisiya mənbəyidir. Yəni ev təsərrüfatları həm də digər istehsal faktoru olan-kapitalın təchizatçısı kimi çıxış edir.

Yuxarıda deyilənlər bazar iqtisadiyyatında ev təsərrüfatları üçün doğrudur. Mərkəzləşdirilmiş hakim iqtisadiyyat şəraitində ev təsərrüfatlarının iqtisadi davranışı bir qədər başqa xarakter daşıyırdı. Belə iqtisadiyyatda ev təsərrüfatlarının rifah səviyyəsi daha çox əmək haqqından deyil, ictimai iyerarxiyada fərdin tutduğu yerdən asılı idi. Partiyaya mənsubiyyət, əlaqələrin mövcudluğu defisit mallara yol tapmağı təmin edirdi. Buna malik olmayanlar isə, istehlak seçiminin çox dar imkanlarına və çoxsaatlıq növbələrdə dayanmağa məhkum idi (hətta yüksək maaş alanlar belə). Sözsüz ki, ailə və dostluq əlaqələri, qeyri-formal münasibətlər xüsusi əhəmiyyət kəsb edirdi.

Hakim iqtisadiyyat şəraitində dövlət digər iqtisadi agentlər kimi, ev təsərrüfatlarının da fəaliyyətinə fəal müdaxilə edirdi. Belə ki, dövlət formal olaraq məşğulluqla asudə vaxt arasında seçim qoymurdu ("tüfeyli həyat tərzi keçirənləri" izləməklə). O, ev təsərrüfatlarının fəaliyyət növlərinin seçimi üzrə imkanları məhdudlaşdırırdı (şəxsi biznesə qadağa, şəxsi yardımçı təsərrüfatın aparılmasına məhdudiyyətlər və s.). Bundan başqa, milliləşdirilmiş "ictimai" təşkilatların köməyilə (həmkarlar ittifaqları, partiya və komsomol orqanları, yerli komitələr və s.) cəmiyyətin ayrı-ayrı üzvlərinin davranışı kiminsə fikrincə, "sovet adamının" davranışından fərqlənirdisə, ev təsərrüfatlarının birbaşa olaraq şəxsi həyatına müdaxilə edirdi (2, 48).

Bazar iqtisadiyyatına keçid Azərbaycanda da ev təsərrüfatlarına böyük təsir göstərdi. Ayrı-ayrı fərdlər və ev təsərrüfatları yeni şəraitə uyğunlaşmağa məcbur idi, məhz:

- gəlirlərin səviyyəsinin və onların stabilliyinin dəyişilməsinə. 90-cı illərin birinci yarısı bir tərəfdən əhalinin real gəlirlərinin kəskin surətdə aşağı düşməsi, digər tərəfdən isə, gəlirlərin differensiasiyasının artması ilə xarakterizə olunurdu.
- əmtəə və xidmətlər bazarında seçimin genişlənməsinə, mahiyyətcə bir çox yeni malların peyda olmasına;
- mahiyyətcə yeni maliyyə xidmətləri bazarlarının yaranmasına;
- əmək bazarının yaranmasına.

Uyğunlaşma prosesi asan deyildi. Faktiki olaraq, ev təsərrüfatlarının təsərrüfat davranışı qiymətlilərinin bütün sisteminin dəyişilməsi tələb olunurdu.

Dünya ölkələrinin inkişaf təcrübəsinə əsasən istənilən cəmiyyətdə davamlı sosial-iqtisadi inkişafa və yeniləşməyə yalnız çoxmülkiyyətli iqtisadiyyat, azad rəqabət və liberal qiymətlər şəraitində nail olmaq mümkündür. Qeyd etmək lazımdır ki, iqtisadi transformasiya prosesi adətən təkamül yolu ilə baş verir və bir qayda olaraq iqtisadi münasibətlərin bütün səviyyələrini əhatə edir. Azərbaycanda bazar iqtisadiyyatına keçid dövrünü iki əsas mərhələyə ayırmaq olar: 1991-1994-cü illəri əhatə edən tənəzzül və 1995-ci ildən başlayaraq bərpa və dinamik inkişaf dövrləri.

Birinci dövr üçün olduqca mürəkkəb siyasi və sosial-iqtisadi vəziyyət səciyyəvi idi. Belə ki, 90-cı illərin əvvəlində Sovet İttifaqının süqutu, müəssisələr arasında mövcud əlaqələrin pozulması, o dövrdəki siyasi rəhbərliyin səriştəsizliyi, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, 1 milyondan artıq soydaşımızın doğma yurd-yuvasından didərgin düşməsi, Azərbaycanın iqtisadi, siyasi, informasiya blokadasına alınması ölkənin sosial-iqtisadi həyatında xaosa gətirib çıxarmışdı.

Bu mərhələnin iqtisadi mənzərəsi həmin illərin makroiqtisadi göstəricilərində daha aydın nəzərə çarpır. 1991-1994-cü illər ərzində ölkə iqtisadiyyatında ÜDM hər il orta hesabla 16,5% azalmışdı. Tənəzzül meyli sənayedə xüsusilə kəskin xarakter almış, 1985-ci ilə nisbətən sənaye istehsalının həcmi 1991-ci ildə 10%, 1992-ci ildə 37%, 1993-cü ildə isə 50%-ə qədər azalmışdı. Ölkə istehsal potensialının demək olar ki, 2/3-ni itirmişdi. İstehsal sahələrinin sıradan çıxması nəticəsində işsizlik səviyyəsi artmışdır.

Bazar münasibətlərinə keçid, ilk növbədə, mülkiyyət hüquqları münasibətlərinin transformasiyasını tələb etdi. Mülkiyyət münasibətlərinin islah edilməsinin zəruriliyi bir çox obyektiv səbəblərlə müəyyən olunurdu ki, buna da bazar iqtisadiyyatına xas olan mülkiyyət formalarının müxtəlifliyinin təbii zərurəti, istisna olaraq dövlət mülkiyyətinə əsaslanan iqtisadiyyatın bacarıqsızlığı, xalq təsərrüfatını səmərəli idarəetmək və s. aid edilə bilər.

1992-ci ildə inflyasiya səviyyəsi əvvəlki ilə nisbətən 4,9 dəfə artaraq 1012,3% təşkil etmiş, 1994-cü ildə isə özünün ən yüksək həddinə, hiperinflyasiya mərhələsinə – 1763,5%-ə çatmışdı.

Büdcə kəsirinin ümumi daxili məhsula nisbəti 1991-ci ildəki 0,1%-dən 1994-cü ildə 13%-ə qədər artmışdı və büdcə kəsiri bütövlükdə Milli Bank

tərəfindən maliyyələşdirilirdi. 1992-1994-cü illərdə xarici ticarət dövriyyəsinin həcmi 42% azalmış, 1994-cü ilədək ölkə iqtisadiyyatına bir manat da olsun belə xarici sərmayə qoyulmamışdı. 1994-cü ildə Milli Bankın uçot dərəcəsi 250%-ə çatmışdı. Əslində ölkə iqtisadiyyatı idarəolunmaz vəziyyətə düşmüşdü.

Qeyd olunan proseslər əhalinin güzəranının ağırlaşmasına səbəb olmuşdu. 1991-1995-ci illərdə əhalinin pul gəlirləri real ifadədə 3,3 dəfə, adambaşına pul gəlirləri orta hesabla 3,6 dəfə aşağı düşmüşdü. 1991-ci ildən başlayaraq 4 il ərzində əhalinin əmək haqqı isə 5,7 dəfə azalmışdı.

Yalnız Ümummilli Liderimiz Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıtdıqdan sonra ölkədə siyasi sabitlik bərqərar oldu, atəşkəs əldə edildi, irimiqyaslı iqtisadi islahatlara başlanıldı. Bunun nəticəsində ölkədə maliyyə vəziyyəti sabitləşdi, iqtisadiyyata cəlb olunan investisiyaların həcmi ildən-ilə artdı, xalqın həyat səviyyəsi yaxşılaşmağa başladı.

1994-cü ilin sentyabrın 20-də dünyanın 8 ölkəsini təmsil edən 11 transmilli neft şirkəti ilə "Əsrin müqaviləsi"nin imzalanması və icrasına başlanması ilə Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasının və ölkənin enerji təhlükəsizliyinin möhkəm təməli qoyuldu.

Azərbaycan neftinin dünya bazarlarına çıxarılması üçün 1996-cı ildə Bakı-Novorossiysk, 1999-cu ildə isə Bakı-Supsa ixrac neft kəmərlərinin istismara verilməsinə və Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin inşası ilə bağlı sazişin imzalanmasına, beləliklə də, ixrac marşrutlarının diversifikasiyasına nail olundu.

Ümummilli Liderimiz Heydər Əliyevin 1999-cu ildə imzaladığı fərmanla neft yataqlarının xarici şirkətlərlə birgə işlənməsindən əldə edilən mənfəət neftinin satışından daxil olan vəsaitlərin səmərəli idarə edilməsi, həmin vəsaitlərin prioritet sahələrin inkişafına və sosial-iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsinə yönəldilməsini təmin etmək üçün Dövlət Neft Fondu yaradıldı. Hazırda beynəlxalq təşkilatlar tərəfindən Fondun fəaliyyəti və bu sahədə şəffaflığın təmin edilməsi yüksək qiymətləndirilir. Azərbaycan Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünü tətbiq edən və namizəd statusuna malik 26 ölkədən tamhüquqlu üzv statusunu almış ilk və yeganə ölkədir.

Neft-qaz sektoru iqtisadiyyatın digər sahələrinin inkişafında lokomativ rolunu oynadı. Düşünülmüş iqtisadi siyasət nəticəsində makroiqtisadi sabitliyə nail olundu və davamlı iqtisadi artımın əsası qoyuldu, iqtisadiyyatın bütün sahələrində islahatlara başlandı, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində ciddi addımlar atıldı.

Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi altında 1995-ci ildən başlayaraq aqrar sektorun bazar prinsipləri əsasında yenidən qurulması, sovxoz və kolxozların ləğv olunması, onlara məxsus torpağın, mal-qaranın və əmlakın kəndlilərə paylanması kimi tədbirlər nəticəsində kənd təsərrüfatında ciddi struktur dəyişiklikləri baş verdi, keyfiyyətcə fərqli münasibətlər formalaşdı.

Aqrar sektorda səmərəli təsərrüfatçılığın, sahibkarlığın inkişafının təmini məqsədilə kənd təsərrüfatı məhsulları istehsalçılarının əvvəlki vergi borcları silindi, onlara müddətli vergi tətillərinin verilməsinə başlandı. Bununla yanaşı, kənd təsərrüfatı məhsulu istehsalçıları torpaq vergisindən başqa bütün digər vergi ödəmələrindən azad edildilər.

Heydər Əliyevin memarı olduğu və uğurla həyata keçirdiyi torpaq islahatı Azərbaycan kəndlisinin çoxəsrlik arzusunu reallaşdırdı, onları torpağın həqiqi sahibinə çevirdi. Bütün qeyd olunan tədbirlərin həyata keçirilməsi nəticəsində aqrar bölmədə özəl sektorun xüsusi çəkisi bu gün demək olar ki, 100%-ə çatmışdır.

Bununla yanaşı, dövlət mülkiyyətinin özəlləşdirilməsinin qanunvericilik bazası yaradıldı və müvafiq dövlət proqramları təsdiq olundu.

Özəlləşdirmənin başlıca məqsədlərini, dövlət proqramlarında təsbit olunduğu kimi, təsərrüfat subyektləri üçün xüsusi mülkiyyət və sərbəst rəqabət prinsipləri əsasında öz-özünü tənzimləyən bazar iqtisadiyyatı mühitinin yaradılması, iqtisadiyyatın strukturunun bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq yenidən qurulması, iqtisadiyyata investisiyaların, o cümlədən xarici investisiyaların cəlb edilməsi, əhalinin həyat səviyyəsinin və sosial vəziyyətinin yaxşılaşdırılması təşkil etmişdir.

Keçid mərhələsində həyata keçirilən iqtisadi siyasətin mühüm istiqamətlərindən biri də infrastrukturun inkişaf etdirilməsi olmuşdur. Azərbaycanın nəqliyyat sisteminin gücləndirilməsi və ölkənin tranzit imkanlarından səmərəli istifadə edilməsi üçün Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizləri üzrə layihələrin həyata keçirilməsinə başlanıldı. Eyni zamanda, ölkədə sahibkarlığın inkişafı üçün zəruri tədbirlər görüldü.

Sosial sahədə mövcud problemlərin kompleks şəkildə həlli məqsədilə əhaliyə göstərilən xidmətlərin, xüsusilə təhsil və səhiyyə xidmətlərinin həcminin, keyfiyyətinin və ünvanlılığının artırılması istiqamətində köklü islahatlara başlandı.

Qeyd olunanlarla bərabər, Azərbaycanın dünya iqtisadi sistemində layiqli yer tutması, ölkə iqtisadiyyatına xarici investisiyaların cəlb olunması məqsədilə investisiyaların qorunması üçün qanunvericilik bazası formalaşdırılmış, 40-a yaxın ölkə ilə ikitərəfli sazişlər imzalanmış, beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq münasibətləri qurulmuşdur.

Beləliklə, Heydər Əliyev strategiyasının həyata keçirilməsi nəticəsində müstəqilliyin ilk illərində baş vermiş tənəzzülün qarşısı uğurla alındı və 1995-ci ildən Azərbaycanda keçid dövrünün yeni mərhələsi – bərpa və dinamik inkişaf dövrü başlandı.

1995-2003-cü illər ərzində ümumi daxili məhsul 90,1%, dövlət büdcəsinin gəlirləri 3 dəfə, ölkənin valyuta ehtiyatları 85 dəfə, sənaye məhsulunun həcmi 25,2%, kənd təsərrüfatı istehsalının həcmi 53,9%, xarici ticarət dövriyyəsi 4 dəfə, iqtisadiyyatda məşğul olanların orta aylıq real əmək haqqı 5,1 dəfə artdı, inflyasiya səviyyəsi 2-3%-ə qədər endirildi, bütün maliyyə mənbələri

hesabına iqtisadiyyata yönəlmiş investisiyaların ümumi həcmi 20 milyard ABŞ dollarını keçdi.

Əldə olunmuş nailiyyətlər sonrakı illərdə ölkə iqtisadiyyatının davamlı və dinamik inkişafı üçün möhkəm zəmin yaratmışdır.

İstehlak davranışı stereotiplərinin dəyişilməsi ev təsərrüfatlarının bazar iqtisadiyyatına uyğunlaşması göstəricisi idi.

Sovet iqtisadiyyatında istehlakçıların davranışını müəyyən edən əsas amillərdən biri istehlak mallarının çatışmazlığı, yəni, təsbit olunmuş qiymətlər şəraitində tələbin təklif üzərində üstünlüyü idi. "Defisit" mallar sırasına həm ilk zərurət malları (kağız, kolbasa və s.), həm də uzunmüddətli istifadə malları (avtomobil) və bəzək əşyaları düşürdü. "Defisit iqtisadiyyatı" istehlakçılarla satıcıların qarşılıqlı münasibətlərini tənzimləyən spesifik institutlar yaradırdı.

Belə institutların ən "güclüsü" çoxsaylı formaları olan növbələr idi: "canlı", talonla  və s. Gücünə görə əvvəlkindən fərqlənməyən institutlardan biri "tanışlıq" idi, bu zaman məhsulları əldə etmək və bir qayda olaraq, digər çatışmayan məhsulu ala bilmək imkanı şəxsi əlaqələrlə müəyyən olunurdu. Bu, yalançı bazar münasibətləri  normal əmtəə-pul münasibətlərini demək olar ki, tamamilə əvəz etmişdi.

Bazar iqtisadiyyatında olduğu kimi, "defisit iqtisadiyyatında" da istehlakçı ilə satıcı arasında informasiya uyğunsuzluğu var idi. Düzdür, satıcı üçün əsas olan məhsulun keyfiyyətindən çox, onun mövcudluq faktı idi. Ona görə də, istehlakçılar arasında "məlumat mübadiləsi", necə deyərlər, şayiələr xüsusi rola malik idi.

İqtisadi islahatların lap başlanğıcından mal nomenklaturası əsaslı şəkildə artdı ki, bunlar da bazarda sərbəst qiymətlər üzrə təklif olunurdu.

Azad ticarət haqqında fərmanlar kimin harada və nə istəsə satmasına faktiki olaraq icazə verdi. Bir tərəfdən, istehlak seçimi imkanları artdı, digər tərəfdən, düzgün olmayan seçim ehtimalı artdı və istehlakçıların zövqü satıcıların təsiri altına düşdü. Istehlak seçimi daha mürəkkəb oldu: yeni, əvvəllər məlum olmayan mallar peyda oldu, reklamla bağlı məlumatlar artdı (həm də keyfiyyətsiz reklamla bağlı). 1990-cı illərin əvvəllərində bazarda keyfiyyətsiz, həm də təhlükəli malların peyda olması böyük bir problemə çevrildi. Bütün bunlar ev təsərrüfatlarının yeni şəraitə uyğunlaşmasını və dövlətin bazar proseslərinin təmzimləyicisi rolunun fəallaşmasını tələb etdi.

1990-cı illərdən istehlakçıların müdafiəsinə yönələn hüquq normaları sistemi formalaşmağa başladı (istehlakçıların hüququnun müdafiəsi haqqında qanunvericilik, uyğunluq sertifikatının mütləq olaraq təsdiqi sistemi və s.). Bir tərəfdən, belə tədbirlər vacib idi, digər tərəfdən, onlar istehlakçıların maraqlarının müdafiəsi şüarı altında sahibkarlıq fəaliyyətinin azadlığını əhəmiyyətli dərəcədə məhdudlaşdıran inzibati məhdiyyətlər sisteminin formalaşmasına gətirib çıxardı.

Azərbaycanda ev təsərrüfatlarının müasir qərb modelinə yaxınlaşması əsasən, orta təbəqənin tədricən formalaşması ilə əlaqədardır. Orta səviyyədə

firavanlığa malik olan ev təsərrüfatlarının payı müasir Azərbaycanda tədricən artsa da, ümumiyyətlə, çox deyil.

Beləliklə, ev təsərrüfatlarının şirkət və dövlətlə qarşılıqlı münasibətlərinin elmi əsaslandırmaları belə bir nəticəni hasil edir ki, həm şirkətlər, həm də dövlət ev təsərrüfatlarından törəmədir. Beləliklə, məhz ev təsərrüfatları bizim dövrə qədər mövcud olan istənilən iqtisadi sistemin ilk elementidir.

*Nəticə*

Özünün gündəlik həyatında ev təsərrüfatları cari və gələcək istehlak arasında seçim edir. Hər zaman kəsiyində ev təsərrüfatları: 1) bu dövrdə əldə etdikləri bütün gəliri istehlaka sərf edə bilər; 2) əldə etdikləri gəlirin bir hissəsini xərcləyib, qalan vəsaiti qənaət edib saxlaya bilərlər; 3) maliyyə bazarlarından borclanaraq, əldə etdiklərindən çox xərcləyə bilərlər.

İnkişaf etmiş ölkələrdə əhalinin yığımı milli iqtisadiyyata qoyulan investisiyaların əsas mənbəyidir. Amma investisiyalar əhalinin əksər hissəsində əmanətlərin bilavasitə məqsədi olmadığından, adətən başqa məqsədlərlə vəsaitləri qoruyurlar:

- *müxtəlif məhsul və xidmətlərin əldə edilməsinə sərf olunacaq xərclərin zaman üzrə bölgüsü.* İri xərcləri nəzərdə tutan müxtəlif məhsul və xidmətlər var ki, onlar cari gəlirlərdən maliyyələşə bilməz (daşınmaz əmlak, avtomobil alışı, insan həyatında baş verən müxtəlif hadisələrlə bağlı iri xərclər və s.). Belə xərcləri etməyə mütləq əmanətlər lazımdır. Onlar daha likvid formada həyata keçirilir və əksər halda əmanət kimi qəbul edilmir;
- *ehtiyatlılıq motivi.* Xərclərin gəlirlərdən yüksək ola biləcəyi hadisələri, məsələn, xəstəlik, qohumların gözlənilmədən ölümü, iş yerinin itirilməsi və s.-dən əvvəlcədən ehtiyat edərək, gəlirlərdən əmanət edirlər;
- *gəlirin əldə edilməsi,* yəni sərvətin saxlanılması və ya artırılması.

Əmanətlər üç əsas formada həyata keçirilə bilər. Pul əldə saxlanıla bilər, maliyyə vasitəçilərinə və ya bilavasitə borc alanlara verilə bilər.

Maliyyə institutlarının inkişafı ilə burada əhalinin əmanətlərinin daha böyük hissəsi cəmlənir, bu da öz növbəsində, onlar tərəfindən investisiyalara transformasiya olunur. Bu transformasiya prosesində vasitəçilər investisiya risklərini öz üzərlərinə götürürlər. Bu zaman əhali müəyyən itkilərə məruz qalır, ona görə ki, öz əmanətlərini bilavasitə borc alanlara verməklə, həmçinin, maliyyə vasitəçilərinin konkret xidmətlərini ödəyərək (hesab açılması və transaksiya aparılması kimi) daha böyük gəlir əldə edə bilərdilər.

İstehlakçılar məhsul və xidmətlərin əldə edilməsinə çatışmayan cari gəlirləri təmin etmək üçün borclanırlar. Kredit zaman üzrə gəlirlərin yenidən bölüşdürülməsi vasitəsi qismində əmanətlərə alternativ olaraq çıxış edir.

Krediti ala bilən ev təsərrüfatları məhsulu dərhal əldə edə bilir və müəyyən vaxt ərzində onun dəyərini ödəyir. Təbii ki, gələcək gəlirlərin krediti ödəməyə kifayət etməyəcəyinə risk yaranır. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki,

kreditin əldə edilməsinin asanlığı ona gətirib çıxarır ki, insanlar gəlirlərlə xərcləri düzgün əlaqələndirə bilmir və sonda bu şəxsin müflisləşməsinə səbəb olur.

İstehlak və yığım arasında seçimlə yanaşı, ev təsərrüfatları müxtəlif yığım alətləri və ya kreditlərin əldə edilməsi arasında seçimi həyata keçirir. Bu seçimə də bir çox amillər təsir göstərir. Beləliklə, maliyyə bazarlarında istehlakçıların davranışının müxtəlif tipinin mövcud olmasından danışmaq olar.

Azərbaycanda maliyyə xidmətləri bazarının tarixi faktiki olaraq, 20 ildən azdır. Vətəndaşların maliyyə bazarlarında müasir davranışları nöqteyi-nəzərindən, keçmiş Sovetlər İttifaqında maliyyə məhsullarının və xidmətlərin təqdim edilməsinin və istifadəsinin aşağıdakı xüsusiyyətləri vacib görünür:

1. Maliyyə xidmətləri və məhsullarının seçimi həddən artıq məhdud idi, əhali üçün nəzərdə tutulan bir çox xidmət növləri mövcud deyildi (məsələn, qiymətli kağızlarla əməliyyatlar, xüsusi təqaüd sxemləri və s.); və sözsüz ki, maliyyə bazarlarının əsas konsepsiyaları kimi (məsələn, risk) bir çox xidmət növləri sovet vətəndaşlarına sadəcə məlum deyildi.
2. Maliyyə xidmətlərini əsasən dövlət təşkilatları-inhisarçılar göstərirdi ki, bu zaman da xidmətlərin təklif edilmə şərtləri onilliklər ərzində dəyişmirdi. Müvafiq olaraq, vətəndaşlar müxtəlif təkliflərin müqayisə edilməsində və xidmət göstərənlərin seçimində təcrübəyə malik deyildilər.
3. SSRİ-də həyatın əsas xüsusiyyətlərindən biri vacib həyati qərarların qəbul edilməsi və maliyyə strategiyası arasında əlaqənin olmaması idi. Nəzərdə tutulan pul gəliri əmanətlərin ölçüsü və kreditlərin əldə edilmə mümkünlüyü kimi mənzil almağa, təhsil əldə etməyə və s.-ə birbaşa təsir göstərmirdi.

Maliyyə xidmətləri bazarının inkişafı 1990-cı illərdən başlayıb. Əvvəllər pulsuz olaraq təqdim edilən bir çox məhsul və xidmətlərin (səhiyyə, təhsil, mənzil) kommersiyalaşması şəxsi maliyyəyə böyük diqqət ayrılmasına və bu rifahların əldə edilməsi üçün maliyyə alətlərinin istifadə zəruriliyinə gətirib çıxartdı.

İqtisadi islahatların ilkin dövrü üçün *hiperinflyasiya nəticəsində əmanətlərin sürətlə qiymətsizləşməsi* prosesi xarakterik idi. İslahatların ilk vaxtlarından vətəndaşların "islahatlardan əvvəlki əmanətləri" hiperinflyasiya ilə əlaqədar sürətlə qiymətsizləşməyə başladı. Faiz dərəcələri həddən artıq yüksək idi, amma inflyasiya itkilərinin örütülməsi üçün bu kifayət etmirdi. Azərbaycan Prezidentinin 2012-ci il 14 mart tarixli fərmanı ilə "Keçmiş SSRİ Əmanət Bankının AR Bankının AR-in vətəndaşları olan əmanətçilərə fərdi birdəfəlik ödəmələrin verilmə qaydaları təsdiq edilib.

Kifayət qədər tənzimlənmənin və yeni maliyyə məhsul və xidmətlərindən istifadə təcrübəsinin olmadığı şəraitdə onların istehlakı *böyük bir risklə* əlaqədar idi- vətəndaşlar əksər halda məyus olur və ya birbaşa itkilər daşıyırdı.

1995-ci ildən başlayaraq, əhali üçün maliyyə xidmətləri bazarı stabilləşməyə başladı. Bank nəzarəti sistemi kifayət qədər yaxşılaşdı, xüsusi lisenziya

olmadan vətəndaşların vəsaitlərinin cəlb edilməsinə qadağaya real olaraq riayət olunmağa başladı.

Bank əmanətləri bazarında Mərkəzi bankın üstünlüyü saxlanılır, düzdür, son zamanlar onun payı stabil olaraq azalmaqdadır. Maliyyə xidmətləri bazarının bütün seqmentləri son illərdə kifayət qədər yüksək templərlə artır. Eyni zamanda, ictimai rəydə aparılan sorğuların nəticəsinə görə, xidmətlərin əksəriyyətinin istifadə səviyyəsi əvvəlki kimi kifayət qədər aşağıdır. Əhalinin müəyyən hissəsi müasir maliyyə təcrübəsinə malik deyil, bir hissəsi isə, ancaq bir dəfə hər hansı maliyyə əməliyyatı aparıb.

Müasir iqtisadiyyat üçün işçi qüvvəsinin keyfiyyət tərkibini müəyyən edən cəmiyyətin intellektual potensialının təkrar istehsalı mühüm əhəmiyyət kəsb edir. Bu birbaşa təhsillə əlaqədardır.

1990-2000-ci illər arası humanitar ixtisaslar, həmçinin iqtisadiyyat və idarəetmə üzrə kadr hazırlığında tədricən irəliləyiş müşahidə olunurdu. Bu hər şeydən əvvəl, bu ixtisaslara artan tələblə izah olunurdu. Tələb artımı iki amil: əmək bazarında müvafiq ixtisaslara artan tələb və "ümumiyyətlə" humanitar ixtisaslar üzrə təhsil almaq daha az məsrəflə müşayət olunduğundan, bu sahələr üzrə ali təhsilə olan tələb hesabına baş verirdi.

Təklif tərəfdən bu irəliləyişə dövlət tərəfindən tənzimlənən, büdcədən maliyyələşən tədris yerlərinin sayı, digər tərəfdən də, qeyri-büdcə yerlərinə qəbulun artım mümkünlüyü təsir edirdi. Humanitar ixtisaslara artan tələb həm dövlət, həm də şəxsi təhsil müəssisələrində əsasən kommersiya qəbulu hesabına ödənilirdi (3, 108).

Şərh etmək olar ki, hazırda təhsil müəssisələrinin iqtisadi davranış strategiyası əmək bazarında savadlı mütəxəssislərə olan tələbə görə yox, əsasən əhali tərəfindən olan tələbə uyğun formalaşır. Nəticədə, təhsil müəssisələri ilə iş təqdim edən istehlakçılar arasında uyğunsuzluq yaranır.

Ali təhsilin kütləviliyi təhsilin keyfiyyətində əhəmiyyətli differensiasiyaya gətirib çıxarıb. Nəticədə, müəyyən bilik və vərdişlərin şəhadətnaməsi kimi peşəkar təhsil haqqında diploma inam azalır.

Beləliklə, bir tərəfdən, təhsilin səviyyəsinin artımı həm ayrı-ayrı ev təsərrüfatlarının rifah səviyyəsinə, həm də, bütövlükdə, iqtisadiyyatın inkişafına müsbət təsir göstərə bilər. Digər tərəfdən, təhsilin kütləviliyi və onun keyfiyyətinin aşağı düşməsi ona gətirib çıxarır ki, təhsil sistemi əmək bazarına təhrif olunmuş "siqnallar" yollayır, bu da işçi qüvvəsindən istifadənin səmərəliliyini aşağı salır.

**ƏDƏBİYYAT**

1. Макаров В.Л., Клейнер Г.Б. Бартер в России: институциональный этап// Вопросы экономики. 1999, №4, с. 34.
2. Экономические субъекты постсоветской России (институциональный анализ) / под ред.Р.М.Нуреева. М.МОНФ, 2001, с.48.

3. Кузнецов Б.В. Влияние конкуренции и структуры рынков на развитие и поведение промышленных предприятий: Эмпирический анализ. В сб. Ясин Е.Г. Модернизация экономики и государство. М. 2006, с.108.

## СОВРЕМЕННОЕ СОСТОЯНИЕ НАЦИОНАЛЬНОЙ ЭКОНОМИКИ (МИКРОУРОВЕНЬ)- ДОМОХОЗЯЙСТВО И ИХ ПРОБЛЕМЫ

**М.Я.ГАМИДОВА**

### РЕЗЮМЕ

Исторически и логически первым субъектом хозяйственной жизни является домохозяйство-лицо или чаще, группа лиц, совместно живущих и ведущих общее хозяйство, между которыми преобладают персонифицированные отношения, структурирующие их экономическую деятельность.

В статье рассматриваются функции домохозяйства, финансовое положение и дифференциация современных домохозяйств. С одной стороны, рост уровня образования является фактором, который, безусловно, может оказать положительное влияние как на благосостояние отдельных домашних хозяйств, так и на развитие экономики, в целом. С другой стороны, массовость образования и снижение его качества приводят к тому, что система образования посылает рынку труда искаженные сигналы, что уменьшает эффективность использования рабочей силы.

**Ключевые слова:** домохозяйство, мотив предосторожности, получение дохода

## THE CURRENT STATE OF THE NATIONAL ECONOMY (MICRO) – HOUSEHOLD AND THEIR PROBLEMS

**M.Y.HAMIDOVA**

### SUMMARY

Historically and logically the first subject of the economic life of a person has been household, or more often a group of people living a common household, among which predominate personalized relationships that structure their economic activities.

The article discusses the function of household, financial position and differentiation of modern households. On the one hand, the increase in the level of education is a factor that can certainly have a positive impact on the welfare of individual households, and the economy as a whole. On the other hand, mass education and reduction in quality lead to the fact that the education system sends distorted signals to the labor market, which reduces the efficiency of the labor force.

**Key words**: household, precautionary motive, income